Salam mənimlə eyni ideologiyada olan insan.

Mənim adım Naradır, bəlkə də, biz sənlə eyni yaşdayıq. Həmçinin düşüncə və fikirdə. Bu məktubu sənə yazmaqda məqsədim bəllidir. Tək bir adı var, “Sülh”. Biz səninlə eyni ad altında birləşirik. Olmazmı bu ad altında milyonlarla insan birləşsin? Bunu istəməzmisən? Mən bunu hər şeydən və hərkəsdən daha çox istəyirəm. Mən keçmişə toxunmaq istəməzdim, irəli və gələcəyimizin daha yaxşı olmasına baxmaq istərdim. Amma bu unudulası bir şey deyil. Hər ikimizin də yaddaşında acı xatirələr və izlər var. Lakin biz gələcəyimizin belə bir şəkildə olmaması üçün, məncə, nəsə edə bilərik. Səncə elə deyilmi? Bu bizim əlimizdə deyilmi? Milyonlarla insanı sevgi, mərhəmət, insanlıq, cəsarət, mərdlik və.s bu kimi gözəl hisslərə çağıra bilmərikmi? İçimizdə bu inam olduğu müddətcə hər şey edə bilərik. Sülh sözü hərkəs üçün 4 hərfdən ibarətdir, amma onun nə olduğunu, məqsədinin necə çətin bir proses olduğunu çox insan bilmir. Sən xoşbəxt, firavan, sülh, əmin–amanlıq olan bir dünyada yaşamaq istəməzmisən? Təkrar olunan göz yaşları, ah nalə, fəryad, qorxu, itki, əzab və nifrət, yaşamaq istəyirsən bunları? Yoxsa gülən üzlər, parlayan gözlər, sevgi və bundan artığını istəməzmisən? Mən səni bu gözəlliklərə dəvət edirəm və ən əsası sizi “Sülh”ə çağırıram. Biz sülh ilə dünyamızı gözəlləşdirəcəyik və mən buna əminəm!

Hörmətlə,

Sülh istəyən bir qız!